*Ay Bəniz ƏLİYAR*

# ÜÇ YARPAQ DUYĞU



## 1-ci yarpaq

### *"BÜKÜN MƏNİ BƏLƏYİMƏ"*

Yazıçı Novruz Nəcəfoğlunun "İçimdə bir ocaq var" kitabından süzülən işıqdan

Şabrandan Siyəzənə gedirəm. Nə az, nə çox, düz yarımca saatlıq yoldu. At belindəyəm, quş qanadlıyam, qarışqa yüklüyəm... Ballıcalar uyuyub yaz qoxusunda, dilimdə əzbər tutduğum bir sətir tapa bilsəm, zümzümə edib qırardım belini yolun. Dünən də yağış yağdı, yudu yolları, bu gün də gün çıxıb qurutdu, sərdi təzədən torpağın üstünə, göylərin altına. Hər daşı almaz daşı kimi min bir şəfəqlə bərq vurur sabahın üzünə. Daşları da adamları kimi bir-birinə qahmar çıxır sanki; bu yolların, ömrü anlamlı keçsin deyə. Bir-birinə arxa çevirmir, əksinə, bir-birinə arxa olur. Sənin kitabını söykək edirəm yollara, vərəqləri yaddaşının sənə məlum hissləriylə dopdolu, dipdiridi:

***"Daş yaddaş, bir də yağış!***
***İri cüssəli, igid gövdəli,***
***Yepyekə bir daş!***
***Yaddaş! Yağış!"***

Şabrandan Siyəzənə gedirəm. Bəlkə də dünyanın ən uzun yoludur, amma bir göz qırpımında bitəcəyindən qorxuram. İynəcələrin belindəyəm, böcəklərin izində, cırcıramaların qanadında. Bir zümzüməlik ah kimiydi bu sabahın alatoran çağı. Bir yaş da böyütmüşdü körpə ürəyini...

"Bükün məni bələyimə..."

– demişdin, sonra əlinə qələm alıb yazmışdın:

***"Çırpınım çıxım qundaqdan,***
***Pöhrələr sıxsın əlimi.***
***Yarpaqlar yelpiyə dönsün,***
***Öpsün, oxşasın telimi."***

Sən də bunu yazarkən, yəqin elə yaz idi, lap elə may ayının gülünün burnunda olan vaxtıydı, yaz o qədər gözəl gəlmişdi ki, adam ölmək istəmişdi bələyinə bükülü. Şeirini bitirməmiş Sən də at belinə qalxmışdın, çapıb zamanı yormuşdun, dağlara tamaşa qurmuşdun. Şeirini bitirməyə dönərkən bir işıldaböcəyinin işıq qəfəsini yarıb Sənə Şeir olmağa gəlişinə rastlamışdın. Bu görüşdən doğmuşdu dincliyinin, rahatlığının illərin təcrübəsindən qaynaqlanan özünə inam mövqeyi.

İnsan düşüncələrini açan bir teorem isbat olunmayıb hələ...

İnsan qədər özünə əzab verən və özünü xoşhal edə bilən ikinci məxluq ola bilməz.

***"İçimdə qor gəzdirirəm,***
***Çölümdə buz parçaları..."*** *– deyirsən.*

Təzad deyilmi?.. Hər bir yaradıcı insanın həyat eşqiylə bərabər yaşadığı bir ömür yoludur Təzad dediyin. Təzad olmasa, insanın özünə hesabatı baş tuta bilməz. Özünüdərk də təzaddan keçir. Təzad daxilində səni yazmağa sövq edən və eyni zamanda da sənə zövq verən təlatümü yaradır. Dərin sulara baş vurmaq istəyindən keçir hisslərindəki təlatüm də. Səni dərinliklər özünə çəkir, yüksəkliklər qoynuna çağırır. Daim bu çarpışma içində ləngər vuran qəm yüklü gəmi kimi sahilinin axtarışındasan. Duyğuların səni ya sahilinə aparacaq, ya da... çox-çox uzaqlara. Ya qurtulacaqsan, ya da qurtaracaqsan bu mübarizənin cəngindən. Hər iki halda sən Özünsənsə, qurtulduğun səni itirməyi gözə alanlar olacaq, qurtardığın isə bir sevgi axtarışında olan can hayqırtısı. Qurtarmaq var, qurtarmaq var... Bir var, qaranlığa qərq olan birini qaranlıqdan qurtarmaq, işığa qaytarmaq ki, bu da qurtulmaq sayılır. Biri də var qaytarmaq, apar qaytar...

***"Qaldıra bilmirəm ayrılıqları,***
***Qaldırsam, yenidən daşıyam gərək."***

– deməyin də oldu bir zamanlar.

Deyib keçmədin. Elə ayrılığın da, həsrətin də ağırlığına çiynini tutdun, köksünü gərdin.

İndi Sənin içindən keçir bütün ayrılıq yolları. Yollar Sənin ən yaxın sirdaşın, ən sadiq dostun kimidir. Bir zaman atını çapdığın tozlu yollar qədər olmasa da... Hardasa uşaqlığının kövrək xatirələri yağış kimi sellənər, gəncliyinin madar dövrü bir içim su kimi sərinlik səpər toxtaqlığının üstünə. Oruclu adam kimi batil olar bütün gerçək istəklərin, dilinə-dodağına yatan söz olsa... Sən dünyanın ən saf hisslərini daşıyan bir ürəklə qət edərsən arxada qoyub gəldiyin bir kənd yolunu. Başı duvaqlı dağlar əl edər sənə, "yaxşı yol" deyər, "qayıt haa" deyər. Haraya getsən də, yarı canın orda qalmazmı? İndi ordan üzü dünyaya baxan bir pəncərə var, gözlərinin bəbəyində. Həmin pəncərədən boylanarsan üzü xatirələrinə. Sənin Şeirlərin də həmin pəncərədən gördüklərindi.

***"Nə yaxşı, dünyanın yaz yuxusu var,***
***Uyusun ümidin ölüm ağrısı."***

– yaşamaq eşqindən doğan bir işıq kimidir bu sətirlər... Sənə daim yol göstərmək onun da alın yazısıdır, biləsən...

Şabrandan Siyəzənə gedirəm. Kitabın əlimdə, Zövnədən bu yana hər yeri gəzmiş kimiyəm, amma mənzilbaşına varmağıma hələ də var. Bitirmək istədiyin Şeir kimidir zaman da əllərində. Sən bitirməyə dönərkən bir işıldaböcək qonar arzularının sətirlənən yerinin süd yoluna. Nə əlin gələr qovmağa, nə Şeiri bitirməkdən vaz keçərsən. Yeni, yepyeni şeirlər yazılar zaman tunelinin divarlarına, çap edib işıq üzünə çıxarmağa güc xərcləməzsən daha, keçən yolçular köçürər onları əbədiyyət yaddaşına. Həmin yolçular da Sənin qazandıqların, itirdiklərin, gələnlərin, gəlməyənlərin olsun!

“Özümə divan özüməm,
Bir ocaq yox ki, qızınam,”

– demisən, söz-söhbətinə qızınanları unutmazsan yəqin, indi hər Səni görəndə qabağına qaçaraq “icra baba, icra baba”- deyən şabranlı uşaqların da gözləri yollarda Səni axtarır!..

## 2-ci yarpaq

## “BİR YAY GECƏSİ”

***Məmməd Əliyevin eyni adlı povestinə***

> **“Qiyamət günü şəhidlərin qanı alimlərin mürəkkəbi ilə bərabər, tərəziyə qoyulur və alimlərin mürəkkəbi şəhidlərin qanından ağır gəlir”.**
> **Məhəmməd Peyğəmbər (s.ə.s.)**

Hər bir xalq təkcə texnologiyası, təbii sərvətlərilə deyil, həm də görkəmli şəxsiyyətləri, ölkəsini dünyaya tanıtdıran alimləri ilə daha böyük olur. Belə şəxsiyytlər üstün keyfiyyətləriylə təkcə öz xalqının deyil, dünya xalqlarının, ümumilikdə bəşəriyyətin sərvəti hesab olunmalıdır.

Deyirlər, Tanrı Adəmi yaratdıqdan sonra əlində bir ovuc gil qalır. Adəmdən soruşur ki, bundan nə istəyirsən düzəldim. Adəm, xoşbəxtlik istəyirəm, deyəndə, Tanrı həmin bir ovuc gili onun ovcuna basıb deyir, bunu sənə verirəm, xoşbəxtliyi necə təsəvvür edirsənsə, eləcə də yarat.

İndi biz Adəm övladları xoşbəxtliyi necə başa düşürüksə, onu elə yaradıb yaşamağa, ondan dadmağa və bir çox hallarda o əlçatmaz anlardan tamsınmağa çalışırıq. Bizim xoşbəxtliyimiz bəlkə də elə doğuluşumuzdan öz əlimizdədi, bəlkə də elə analarımızın dualarında, atalarımızın bizə qoyub getdikləri ruh, kök, damar, qan toxumalarındadı.

Və əlbəttə ki, Bizi bu gün bir araya gətirən Sözün qüdrətidir. Tanrının “OL” kəlməsindən cana gələn Adəm övladı bu gün zaman-zaman irəliləyir, alim olur, şair olur, yazıçı olur və bütün bu “ol”lardan keçərək özü üçün bir dünya yaradır, Adam olmaq mərtəbəsinə ucalır. Sözümü niyə Tanrı kəlamıyla başladım? Bu, çox hörmətli Məmməd müəllimin

qələmə aldığı “Bir yay gecəsi” povestinin mənə doğma gələn tərəfi elə inam və iman üstündə qurulan ana xəttindən qaynaqlandı. Atasını erkən itirən bir yeniyetmə anasıyla şəhərdən doğma kəndlərinə qayıdıb yaşamalı olur və bu əsnada onların evi qarət olunur. Bütün bu olayları canlandırdıqca, əsər müəllifinin qulaq yoldaşı olurmuş kimi, onun qəlbindən gələn göynərtilərin sızıltısını dinləmək məcburiyyətində qalırsan. Povestin balaca qəhrəmanı çox təmkinlə, səbrlə və dözümlə geriyə, ömrünün doğma kənddə qalan hissəsinə boylanır. İndi o, artıq həddi-buluğa yetişib və özünə inamlıdı. Bu inam ona arxa olan bir nəsildən gəlir. Dayılarının adını fəxrlə çəkir. Anasının gücünü və iradəsini, sevgisini əldə bayraq edir. O, Günəşin doğuşuna tamaşa edirmiş kimi, öz gələcək işıqlı sabahını gözləyir. Və buna nail olur. Balaca qəhrəman hələ də bir kənd yerində adlı-sanlı bir şəcərəyə malik olan ocaqdan edilən oğurluğu özlərinə sığışdırmayan böyüklərin bunu hansı bədxahın etdiyini düşünür, qələmə alır. Əsərdə daha çox ona arxa duran insanların onun ovqatında buraxdığı izlər öz əksini tapır ki, bu da qəhrəmanımızı bizə daha güclü və arxayın formada çatdıra bilir. Müəllif elə əsərin həmin balaca qəhrəmanıdır. Bütün çətinliklərdən keçmiş, Dübrar dağından boylanan bir ucalıqla həmin kəndlərin təmiz, saf ab-havasından heç zaman uzaq olmur, qəlbindəki o saf kənd uşağının əlamətlərini daşıyır.

Yaddaş gözəl və ən sadiq zaman daşıyıcısıdır. Bəzən ondan sui-istifadə edirsən, keçmişlə bu günü müqayisə edib rəy çıxara bilirsən. Bəzən isə, yaddaşına da hörmətlə müraciət edib onun gözəl xatirələrindən gələcəyinə, səni xatırlamaq istəyənlərə bir kitab – köynək tikirsən. Aydın müəllim mənə bu povesti oxu, deyəndə, çox maraqlandım, bir saata oxuyacaqsan, demişdi, amma birnəfəsə oxuduğum bu povestlə 2017-ci ilin yayında Şabranın ən ucqar kəndlərindən olan Çuxurazəmiyə getdiyim günü xatırladım. Aydın müəllim, Novruz müəllim və mən... O günü qələmə almışdıq, hər birimiz öz aləmimizdə sevmişdik o yerləri... Novruz müəllim nöqtə qoymuşdu bütün yazılanlara: Necə gözəldi Gilgilçay, necə füsunkardı Qızılçay, necə istiqanlılıqla qucaq açıb hərarətlə qarşılayır bizi Dərkəl! Vədəsində sularla öpüşüb bir-birinə dov gəlmək üçün çarpışan daşlar indi toz-torpaqdan kirəcləşib, lildən mamır bağlasa da... Necə də göz oxşayır Gilgilçayın çöhrəsi, küllə bələnmiş sağ sahilinin boz, səssiz-səmirsiz, quş da ötməyən yamacları. Təkcə kəkliklər qayaların arasında uzaqdan belə sezilən kövüllərdən seyr edir, "gülümsəyir" yollarına. Dübrar dağının gülümsər çöhrəsini gördünmü? Qayıdanbaş necə əl eləyirdi!..

Məmməd müəllim də olduğu kimi təsvir edirdi kəhəriylə keçdiyi dağ kəndlərini – Alxanlı, Quybulaq, Qızıllı, Əmirxanlı, Məşrif-Qarabağlar, Zöhrabkəndi, Qaranohur bulağını, Taclı nənənin məzarına ziyarətini... Kəndlərdən keçdikcə düşünür, xatirələri çözələnir və eyni fikir-xəyalla da atına – kəhərinə olan bağlılığını qələmə alır. Oxucunu intizarda qoyur bəzən də, düşünürsən ki, görəsən, bir ailənin son gümanı olan ev əşyalarına kimdir göz dikən, doğrudanmı onların tapılmasında ilahi bir qüvvənin əli var, Aşıq Əşrəfin sazı qoynuna basıb dilləndirməsi də, saza-

sözə və əslində, dinə-imana bağlılığın bir təzahürüdür, müəllifin gözünün önündə tapılır həmin ata yadigarı xalça, anasının bəlkə də gəlinlik cehizi olan “Zinger” markalı tikiş maşını. Artıq oxucu üçün də bu, bir prinsip məsələsinə çevrilir. Qarətçilər cəzasına çatmalıdır, Allahdan-vallahdan gələn bir gücün köməkliyiylədir, bəlkə də, cəzalı və əlaqədar olanlar aşkara çıxır, hərgah məndə də belə bir inam var ki, üstümüzdə bizi qoruyan daha böyük bir qüvvə sahibi var!

“Bir yay gecəsi” povesti xatırlamaq istədikdə çox izzət və hörmətlə andığın insanların bir gəncin əsl vətəndaş kimi yetişməsində çox incəliklə və qayğıyla yanaşmalarını özündə əks etdirir. İllər ötür, həmin insanlar dünyalarını dəyişsə belə, bir əsərin yaddaşında, eləcə də həmin müəllifin özü üçün diridir, canlıdır, ölməzdir. Keçmişə hörmət, doğulduğun, boya-başa çatdığın torpağa bağlılıq və sənə qayğıyla yanaşan insanlara daimi minnətdarlıq hissi aşılayan bu povest onu oxuyan hər bir insanı düşündürəcək və yaddaşını oxşayacaqdır. At belində əsər qəhrəmanının keçdiyi bir yerlər var ki, həmin hissəni oxuduqca, at minməyən biri olsa belə, maraqla oxuyar, könlündən at minmək keçər və həqiqətən də atın insana yaxın bir vəfalı dost olduğunun bir daha şahidi olarlar.

Sonda belə qənaətə gəlmək olar ki, Məmməd müəllim yaxşı alim, pedaqoq olmasaydı, mütləq çox gözəl bir yazıçı olardı. Və bütün hallarda onun yaxşı alim, ədəbiyyatşünas olması dəyərli söz sahibi olduğundandır.

## 3-cü yarpaq

## *YERİNDƏ VƏ MƏQAMINDA OLAN AYDIN*

*Yazıçı-publisist Aydın Tağıyevin*
*özünə də müəmma dünyasına*

**"Ruhunu itirən dünyanı qazansa nə fayda?!."**
***Viktor Hüqo***

***Bir az üzüaşağı,***
***bir az üzüyuxarı...***
***Yolları ayaqladım,***
***ömür oldu çıxarım...***

Bizim Şabranda bir kitab təqdimatı öncəsiydi. Üç nəfər, beş nəfər qrup halında – hər kəs bir qırağa çəkilib söhbətləşirdi. Yaradıcı insanların maraqlı görüşmələri olur. Həvəskarlar da onlara diqqətlə qulaq asmağı bacaranda, həqiqətən də, söz adamları bir başqa cür ürəklə və doğmalıqla fikir yürüdə bilirlər.

Aydın müəllim isə hamıdan kənarda durub qoltuğuna vurduğu qovluğu eşələyirdi. Bir əlində də ki, məlum məsələ, siqareti tüstüləyirdi. Adama elə gəlirdi ki, Aydın müəllim o biri əlindəki siqareti görmür və

yaxud hiss etmir, çünki sanardın ki, siqaretin közü dolanda qovluqdakı yazıların üstünə səpiləcək, o ağ vərəqlərə az qala od düşəcəkdi. Hər bir yazarın daşıdığı əsərləri özü üçün nə qədər dəyərlidirsə, qovluqdakı yazılar da Aydın müəllim üçün o qədər əziz və dəyərli idi, amma son anda Aydın müəllim siqaretinin külünü kənara silkələyib təzədən sümürəndə anlayırdın ki, yox, Aydın müəllim nə lazımsa zamanında və vaxtında etməyi bacarır... Kənardan başqaları tərəfindən seyr ediləndə, bəzi insanlar var ki, bunu sezib duyuq düşərək özlərini sevilənlər sırasında hiss etdikəri üçün məmnun qalıb daha çox sevinirlər. Amma mənim yazımın qəhrəmanını kənardan nə qədər seyr etsən də, nə qədər "sevib-əzizləsən də", yazdığı hekayələrinə girib onu axtarsan da, tapmayanda darıxıb digər hekayəsinə keçsən də, tapanda uşaq kimi sevinib qoluna girərək hardasa bir samovar çayına dəvət etsən də, eyni sadəlikdə və eyni səmimiyyətdə oxucusuna, onu kənardan "oxumağı" bacaran hər bir insana ürəkdolusu minnətdardır. Onu deyirdim axı, bir kitab təqdimatı öncəsiydi, o zaman ədəbi mühitə təzə qaynayıb-qarışdığım vaxtlar idi, hamını bir elə yaxından tanımırdım, amma adlarını eşitdiklərim və əsərlərini oxuduqlarım vardı ki, onlardan da biri Aydın Tağıyev idi. İndi bu kitab təqdimatı öncəsi zamanımız vardı ki, dəvətlilərin içindən adını eşidib üzünü görmədiklərimizi görək və gördüyümüz gün də əsl yaddaqalan bir bayram təəssüratıyla yaddaşımıza həkk edək. Bəli, məkana çatanda üç nəfər, beş nəfər qruplaşmalardan ayrı duran bir Aydın müəllim idi, bir də mən idim. Qovluğundan, deyəsən, istədiyini tapıb rahat olan Aydın müəllim, yəqin ki, məni də tək durduğum üçün özünə oxşatdığından, diqqətini çəkə bilmişdim. Qovluğunu şəstlə qoltuğuna vurub, doğmasını görürmüş kimi, adımı səsləndirdi. Nə gizlədim, şəkillərini dərgilərdən gördüyüm yazıçımızın bu balaca qızcığazı tanıması, hətta adımı bu boyda şirinliklə çağırması məni qürurlandırdı. İrəli yeridim, əlimi sıxdı. Sıxdı və əlində bir-iki dəqiqə saxladı... Barmaqları arıq olsa da, dəmir kəlbətin kimi güclü idi. Tez əlimi ovcundan çəkdim. Bunu hiss etmədi. Amma çox-çox sonra biləcəkdim ki, Aydın müəllim hər əli belə doğmalıqla və istiliklə sıxmır vəələlxüsus da o, bir əli tutdusa, onu heç zaman buraxmır!..

Boyca ondan hündür olduğum və hündürdaban ayaqqabı geyindiyim üçün Aydın müəllimin siması gözümün qabağında aydınca açılırdı. Baxışlarındakı qalaq-qalaq yarıyuxulu sətirlər, gözlərinin qarasında yığılıb qalan açılmayan gecələrin qaranlığı, çiyinlərini əzməyə və əyməyə çalışan, amma əzib əyə bilməyən qarımış dərdin ağır və "buzlaşmış heykəli", gözlərinin ağında isə üzüağlığı və alın açıqlığıyla bərabər, ag günlərə aparacaq ümidlərlə dolu günlərin müjdəcisi vardı... Gözlərinin ağına və qarasına toxunmadan, eləcə baxışlarında yığılıb qalmış yarıyuxulu sətirləri oyatmaq keçdi könlümdən. Bir saz havası, bir şeir ahəngi üstündə oyatmaq, oyatmaq, oyatmaq...

İnsanın içinə sinən bir sevdası olması çox gözəldir... Ömür boyu o sevdanı tutub addımlayırsan... Bu, bir yazar üçün böyük xoşbəxtlikdir!..

Çöhrəsi nə qədər kədərli olsa belə, hər bir əsərində bu xoşbəxtliyi

görmək olurdu Aydın Tağıyevin. Hətta müharibədən qayıtmayan oğlunun yolunu səbirsizliklə gözləyən, hər dəfə obaya-elə bir əsgər gələndə, onun da oğlu gələcək deyə "Ümid"lənən, amma hər dəfə də ümidi boşa çıxan Süsən nənəni qəhər boğanda da, "Alma oğurlayan divlər" sayağı hər səhər bağa gəlib adəti üzrə ağacdan almanın ən irisini, qırmızısını dərib arxa atan Bağbanın qapısına əli cibindəki pulunun üstündə olan, satlıq yaxşı alma axtaran oğlanı gördükdə xəyalları suya düşən bağban qızının için-için hönkürtüsündə də, "Albomdakı köhnə şəkil"lərə baxanda öz toy şəklində həyat yoldaşı özünü görmədikdə və yerində hansısa uzaq bir kitab təqdimatında avtoqraf verdiyi bir qızın şəkli olanda da, ağlamadığını dəqiq bilmək üçün əlini qupquru gözünə aparanda da ümidliydi müəllif...

Ümidliydi və çox güclüydü...

"O adam nə vaxt gələcək?" – deyib düşünən yolçunun yanında duran da sanki müəllifin özüdür, bu dünyaya gəlməmişdən axtardığını, nəhayət ki, tanımadığı bir adamın yanında durarkən əcəlində tapan həmin insana yoldaşlıq etməyə çalışan, əslində isə onu bu "darıxmaqdan" xilas etməyə çalışması da müəllifin gücüdür... Uşaqlarının son azuqəsi kimi rəhmətlik anasından yadigar qalmış çini kasaları bazara çıxarmaq istəyən arvadına verdiyi "dərs"də də, o kasaları özünə pay kimi götürmək istəyən müdirinə qarşı çıxardığı sifətdə də Rəhim müəllim kimi güclüdür, anlayışlıdır... Çox-çox əvvəllər "Cəngi" səsi dağı-dərəni başına götürəndə hər kənd toyunda meydan sulayıb nəmərini alan pəhləvan Cəlal kimi və eynən, cəbhədən qoltuq ağacına söykənib yavaş-yavaş kəndə tərəf gələn təkqıçlı əsgər pəhləvan Cəlal kimi güclüdür müəllif...

"Çiçəkli çölün sarı gülləri" hekayəsində oğlunun bir dişdəm aldığı almanı heç yeyib qurtarmamış ilan çalan cəsədini ağacın dibində görən Kazım kişi onun qəbrinin üstündə bir alma ağacı əkir. Hekayə belə başlayır. "Çiçəkli çölün sarı gülləri solmuşdu..." Bu bir sətri oxuyan kimi hər tərəf insanın gözündə artıq saralmağa başlayır. Və eyni təsir altında hekayə davam edir... Sarılıq insanın canına hopur, hopur... ta o vaxta qədər ki, Kazım kişi həmin ilandan oğlunun qisasını alır. Nəinki oğlunun, həmin bağa alma yeməyə gələn başqa uşaqların da...

Beləcə, yeri gələndə ötkəmdir, əsəbidir, yeri gələndə cəsarətli və uzaqgörəndir, yeri gələndə də ürəyiyuxa və həlimdir bizim Aydın Tağıyev... Sözdən qənaətlə istifadə etmək bir yazıçı kimi onun bütün əsərlərində, eləcə də çıxışlarında da bunu görmək mümkündür... Bütün əsərləri insan taleyi ilə, yaşadığımız və gördüyümüz canlı həyat tabloları ilə doludur. Aydın müəllim üçün əsas amil insan obrazıdır. Onun qəhrəmanı həmişə haqlı və qalibdir. Onun qəhrəmanı amansız deyil, insaflı və başadüşəndir. Sevgi obrazı Aydın Tağıyevin hekayə və povestlərində açılmamış bir buta kimi sehrli və diqqətçəkəndir. Hətta, toxunulmazdır, deyərdim!.. Müəllif bir çox əsərlərində açmadığı hissləri bəzən bir sətirlə çılpaqlığıyla oxucuya çatdıra bilir. Bax, budur, əsl yazıçılıq!.. Bir insan hamının sevimlisi ola bilməz... Amma əsl yazıçı hamının sevimlisinə çevrilməyi bacarandır.

Qələmlə aldıqları ilə damla-damla "böyüyən" və pillə-pillə ucalan bir Aydın var bizim Şabranımızda!.. Hamımızın sevinc və iftixar yeri, əli qələm tutandan Şabranı və onun ziyalılarını şabranlılara və bütün onu tanıyan və tanımayanlara təqdim edən əsl el təəssübkeşi, ədəbiyyat cəfakeşi... Bəli, Aydın Tağıyev təkcə yazıçı deyildir, o, həm də çox dəyərli bir publisistdir ki, illərdir öz ömrünü yaşadığı torpağa həsr etməyi bacarmışdır. Bütün ağrı-acısıyla, problemləriylə bizə sadiq bir yaradıcı dostdur mənim Qəhrəmanım!.. Böyük şəhərlərə tez-tez yolçuluq edər və bu yolçuluqda da öz balaca şəhərini yazılarında "qucağında" daşımağı bilər... Necə deyərlər, böyüklə böyük, kiçiklə kiçik olmağı bacarar... Qəfəsə salınmış qartal necə azadlığa can atırsa, Aydın Tağıyev də öz əsərlərini işıq üzünə elə cidd-cəhdlə çıxarar və buna can atar.

"Qartal dağ başında qartaldır!" Bir yazıçı da əsərləri ona uğur gətirdikcə yazıçıdır.

Rayonda Xaqani Poeziya ocağının araya-ərsəyə gəlməsiylə canlanan ədəbi cameə gələcəkdə neçə-neçə gözəl qələm sahibləri yetişdirəcəkdir. İllərdi toplanmaq üçün özünə bir yer tapa bilməyən Şabran ədəbi mühit adamlarının əsl məbədgahına çevrilən bu ocaq neçə-neçə görkəmli söz adamlarını qarşılayıb yola salmışdır. Deyərdim ki, Aydın müəllim haqqında yazılmış ən dəyərli əsərlərdən biri və yəqin ki, elə birincisi, yazıçı dostumuz Novruz Nəcəfoğlunun qələmə aldığı "Nağıl adam" avtobioqrafik romanıdır ki, həmin əsəri oxuduqca bu dünyanın ən saf və məsum adamını, ömrünün hər günü sətir-sətir nağıllaşan AYDINı sevməmək mümkün deyil... İndi yaşının 70-ci sonbaharında, 30-dan çox kitabın müəllifi olan Aydın müəllim yaradıcılığının ona bəxş etdiyi uğurları yaşamaqdadır...

"Dünyanın düz olmayan bir vaxtında" düz qalmaq, dost qalmaq çox çətindir... Bu ağır yolda uğurları bol olsun Aydın Tağıyevin... Bu yerdə eşitdiyim bir rəvayəti də qeyd etmək istərdim.

"Bir dostum danışır ki, bir neçə il öncə ova getmişdim. Dağın yamacındakı böyürtkən kollarının arasıyla zirvəyə, qalın meşəyə doğru gedə-gedə payızın ayazını görüb şirinləşmiş böyürtkənlərdən yeyirdim. Birdən qarşıma balasına böyürtkən yeməyi öyrədən bir ana ayı çıxdı. Ayı məni görmürdü və yetişmiş böyürtkənlərdən gah özü yeyir, gah da balasına verirdi. Tez tüfəngimi hazırlayıb ayıya tuşladım. Hənirtidən ana ayı elə bil yuxudan ayıldı. Üstünə tuşlanmış tüfəngi görüb, tez balasını öz arxasına çəkdi, iki ayağı üstünə qalxıb başına ikiəlli öz yekə pəncələri ilə elə bir qapaz vurdu ki, tüklərim ürpəşdi.

Əlim sustaldı, tüfəngi aşağı endirdim.

Ayı tez balasını qabağına qatıb böyürtkənlərin arası ilə uzanan cığırla donquldana -donquldana uzaqlaşmağa başladı...

Amma hərdən çevrilib yenə başını qapazlayırdı..."

Bilmədim bu rəvayət hardan yadıma düşdü, amma rayonumuzdakı ədəbi mühiti öz balası kimi sevən, qoruyan Aydın müəllim indi AYB-nin Şabran bölməsinin sədridir. Neçə illərdən sonra, nəhayət ki, layiq olduğu məqamındadır...